

Əlibala Rəhimov,
Publisist, "Qızıl Qələm" mükafatı laureatı

# İki papaqlı kişi

Vallah-billah, söz-sözü çəkəndə məni hap gopçuluqda, uydurmaçılıqda ötən dövrlərin bəzi-bəzi olaylarını, indinin cavanlarının istehza və gülüşünə səbəb ola bilən qeyriadilikləri dilə gətirməkdə günahlandıranları qınamıram. Və onlara asta-asta səmimiyyətlə, bir az da suçlu insanlar kimi başa salıram ki, əşi day dost-tanış məni bağışlayın. Hərənin bir şakəri var və mən yazığın caykeşliyi elə budu ki, əlimə qələm düşdü, haçansa, kiminsə dilindən eşitdiyim maraqlı söhbəti fötə vermədən köçürürəm ağ kağıza. Muncuq kimi sətirlər sralananda, pah, elə bil dünyanın bütün sevincini, xoşbəxtliyini bağışlayırlar mənə.

Yaddaşımın üzündən öpürəm...

K.Y. Voroşilov adına kolxozda təntənəli, indiki dillə desək, möhtəşəm izdiham gözlənilir. Dahi rəhbər V.İ.Leninin anadan olmasının 76-cı ildönümünün qeyd edilməsinə cəmi bir gün qalır.

Bircə gün. Sabah, aprelin 22-də raykomun birinci katibi Məmmədtağı Şəfibəyli başda olmaqla aktivlər kəndə təşrif buyuracaq, dünyanı lərziyə salan oktyabr inqilabının banisi V. İ. Leninin heykəlinin açılışı olacaq.

Hər yan səliqə-sahmanlıdı, ətraf gül-çiçək, çala-çuxurlar hamarlanaraq əsl bağça düzəldilib.

Axşam sədr Vəli Məmmədov evdə tapşırıq verir: təzə kostyumu, qalstuku, köynəyi hazırlayın. Sonra əl-üzünü yuyub süfrə arxasında əyləşir, elə qaşığı götürüb bozbaşa girişmək istəyərkən qapı açılır, içəriyə inşaat briqadiri Mirzəli girir. Həyəcandan, qorxudan rəngi-rufu qaçan briqadir dili topuq vura-vura, təngnəfəs, lov xəbər verir:

- Başuva dönüm , ay qağa, işlərimiz yaman şülüqdu, biabır olmasaq yaxşıdır.

- Niyə?.Noolub, əyə ?. Barama kümləri uçub?.

- Yox qağa, o təzə heykəl var ha, dünən qoyduğumuz... Demə kişinin baş hissəsində çapıq var imiş, çənəsi qopub düşüb, onu nə təhər düzəldəcəyik?

Sədr ayağa durur.

- Nə çərənləyirsən, ay maymaq. Başuva soyuq dəyib, nədi?.

Briqadir büzüşür:

- Nə bilim, vallah, imanım Allah əmanəti, ya Bakıdan elə göndəriblər, ya da bic uşaq-muşaq daş atıb...

Aktiv elə gecəykən heykəlin yanına cəm olur. Neyləyək, vaxt daralıb, sabah Şəfibəyli gəlib görsə atamıza ot vurar. Hərə bir təklif verir. Amma dəlidən doğru xəbər: özünü-sözünü bilməyən cırtqoz, alasəfeh qarğıdalı briqadiri Qardaşxanın təklifi bəyənilir: qonşu Şaumyan adına kolxozdakı Leninin başını alıb gətirək, qoyaq bizimkinin üstünə, sonra qaytarıb verərik.

Gecəni kim yatar?. Ora get, bura get... və sonluq, əməliyyat uğurlu alınır. Baş dəyişdirilir. Rahat nəfəs alırlar və ağ parçanı örtürlər heykəlin üstünə... Sübh tezdən quşların nəğməsi başlayanda, dirəyə vurulan repreduktorda himn çalınanda hamı, xüsusən sədr Vəli Məmmədov bu işlərindən məmnun qalır. Sonra dağılışırlar evlərinə, intizarla, həyəcanla rayondan gələn qonaqları gözləəyirlər. Qüdrəti şalını atmaca atan, saç-birçəyinə sığal verən Dəstə öndə dayanıb, əlində padnos, qayçı, qırmızı lent. Kim danışacaq, nə deyəcək. Lenini, Kommunist Partiyasını necə təriflləyəcək, bunlar hazır. Partkom Qulamhüseyn qəzetlərdən bəzi parçaları ağ kağıza yazaraq verimşdi manqa başçısı Solmaza, pambıq briqadiri Əvəzə, sağıcı Xansənəmə...

Nigarançılığın sonu. Gəldilər. Birinci katib "vilis"dən düşən kimi hamı əl çalır. Şüarlar səslənir, V.İ.Leninin, İ.V. Stalinin potretləri yuxarı qaldırılır. M. Şəfibəyli məmnun görünür, çöhrəsində xoş təbəssüm var, deyəsən belə qarşılanmağı ürəyincə olub: " Əhsən Mamedov, heç gözləmirdim səndən".

Təntənəli tədbir öz ahəngindədir. Lent kəsilir, ağ örtük sürüşüb düşür. Çıxışlar başlanır və növbə 10 uşaq anası, sağıcı Xansənəmə çatanda əsl həngamə qopur. Yazıq, binavə, savadsız Xansənəm necə deyərlər, elə sinədən danışır:

- Başuva dönüm ay Lenin... Bizim bu Əsgərabad kəndinə xoş gəlib, səfa gətiribsən. Qədəmlərin mübarək... vallah-billah mən həmişə deyirəm: Lenin olmasaydı, kim bizi ağ günə çıxarardı. Kim bizim, kasıb-kusubun arxası, köməyi olrdı?... baxın, elə bil peğəmbərdi, üzü nurludu, ayağı çörəklidi onun... İndi gərək biz neyləyək?-çox işləyək, gecə-gündüz fermada olaq. Planı 2-3 qat verək...

Bura kimi yaxşı gəldi Xansənəm, amma sonu zayılladı:

- Balalarımın hamısı qurban olsun sənin papaqlarına, ay Lenin.

- Nə?. Papaqlarına?.

M. Şəfibəyli arxaya dönüb heykələ diqqətlə baxır. Bu nədi?. Rəngi dəyişir onun Leninin iki papağı var, biri başında, o biri irəli uzanan əlində...qaşları çatılır birincinin, tərs-tərssədrə baxır və "vilis"ə tərəf gedir...

***P.S.*** *NKVD-nin rəisi İbrahim Səfərov iki dəfə kəndə gəlib, bəzi adamlarla təkbətək görüşür və məlum olur ki, təxribat-zad yoxdur, sadəcə olaraq o gecə möhəmcə tələsiblər. Buradakı heykəlin papağı əlindəymş, oradakının başında... İ.Səfərovun tapşırığına əsasən MTS-in mexaniki A.Stelnikov çox çətinliklə olsa da Leninin əlindəki papağı götürür və izi itsin deyə heykəli gümüşü tozla rəngləyir.*